# ABŞ Azərbaycanlıları Şəbəkəsi Qara Yanvar hadisələrinin 26-cı ildönümü ilə əlaqədar kampaniya keçirir

ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycan xalqının 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar 1990-cı ildə baş vermiş bu hadisələr barədə Amerika ictimaiyyətini məlumatlandırmaq üçün ənənəvi yazılı kampaniyaya başlayıb. Şəbəkənin hazırladığı müraciətdə “Human Right Watch” hüquq müdafiəsi təşkilatının “Azərbaycanda Qara Yanvar” hesabatından faktlar, habelə Bakıda sovet ordusu tərəfindən qətlə yetirilən dinc sakinlər barədə statistik məlumatlar yer alıb. Müraciətdə deyilir ki, 26 minlik sovet qoşunları kontingenti 1990-cı il yanvarın 20-də Bakını işğal edib, şəhərin dinc əhalisini qırıb. Nəticədə 147 nəfər həlak olub, xeyli adam itkin düşüb. Müraciətdə qeyd edilir ki, sovet qoşunlarının günahsız Azərbaycan vətəndaşlarına qarşı hücumu 1986-cı ildə Qazaxıstanda, 1989-cu ildə Gürcüstanda dinc əhalinin qırğınının davamı olub. Qara Yanvardan sonra - 1991-ci ilin yanvarında Litvada da eynilə bu cür faciəli hadisələr baş verib.




ABŞ Azərbaycanlıları Şəbəkəsinin Amerika ictimaiyyətinə, mətbuatına və qanunvericilərinə müraciətində deyilir ki, 1990-cı ilin 20 Yanvar günü Azərbaycanda sovet hakimiyyətinin sonunun başlanğıcı olub. Müraciətdə deyilir: “Azərbaycanda 20 Yanvar hadisələri Azərbaycan xalqının yaddaşına faciəli səhifə kimi həkk olunsa da, bir il sonra - 1991-ci ildə respublikada müstəqilliyin elan edilməsinə səbəb olub. Qara Yanvar iyirmi altı il sonra da əhəmiyyətini itirməyib. Milyonlarla azərbaycanlı və Azərbaycanın dostları hər il Bakıdakı Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçənlərin xatirəsinə ehtiramlarını bildirirlər”.

ABŞ-ın azərbaycanlı icmasının üzvləri yazılı kampaniya vasitəsilə Amerika ictimaiyyətini 20 Yanvar hadisələri barədə məlumatlandırır, ölkənin qanunvericilərini bu vəhşi aksiyanı rəsmən pisləyən qətnamələr qəbul etməyə çağırırlar. ABŞ Azərbaycanlıları Şəbəkəsinin ənənəvi kampaniyası nəticəsində son 8 ildə müxtəlif Amerika nəşrlərində Qara Yanvar barədə onlarca məqalə dərc edilib, bir neçə ştat tərəfindən qubernator səviyyəsində proklamasiyalar, parlament səviyyəsində qətnamələr qəbul edilib.

***Yusif BABANLI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Vaşinqton*